"Qələmin müqəddəs vəzifəsi xalqın xoşbəxtliyi yolunda xidmət etməkdir"
Cəlil Məmmədquluzadə



# ÇIRAQ

30 dekabr 2015-ci il № 12 (234) Qəzet 1992-ci ildən çıxır. Siyəzən rayonunun ictimai-siyasi qəzeti. Qiyməti müqavilə yolu ilə



## Dünya azərbaycanlılarına

***Əziz həmvətənlər!***
***Hörmətli soydaşlar!***

Vətən təəssübkeşliyi, doğma yurda və milli-mənəvi dəyərlərə bağlılıq kimi nəcib hisslər aşılayan 31 Dekabr-Dünya Azərbaycanlılarının Həmrəylik Günü ərəfəsində sizi salamlayır, hər birinizə xoş arzu və diləklərimi çatdırıram.

Bütün soydaşlarımızın azərbaycançılıq ideologiyası ətrafında sıx birləşərək mütəşəkkil qüvvəyə çevrilməsi məsələsinə xüsusi diqqət yetirən ümummilli lider Heydər Əliyev bu sahədə tarixi qərarlar qəbul etmiş, xaricdə məskunlaşmış həmvətənlərimizin hüquqlarının qorunmasına, diaspor quruculuğunun geniş vüsət almasına yönələn əhəmiyyətli tədbirlər həyata keçirmişdir. Aparılan məqsədyönlü siyasətin nəticəsi olaraq, bu gün diaspor təşkilatlarımız fəaliyyət göstərdikləri ölkələrdə Azərbaycan həqiqətlərinin təbliği, milli maraqlarımızın müdafiəsi və respublikamızın digər dövlətlərlə qarşılıqlı faydalı münasibətlərinin dərinləşməsi işinə öz töhfələrini verirlər.

Hazırda davam edən qlobal maliyyə-iqtisadi böhrana baxmayaraq, hamımızın doğma vətəni olan Azərbaycan Respublikasında 2015-ci ildə də sosial-iqtisadi artım dinamikası qorunub saxlanmış, müxtəlif sahələri əhatə edən dövlət proqramları və infrastruktur layihələri ardıcıl icra edilmişdir. Ölkəmiz Avropa ilə Asiyanı, Şimalla Cənubu bir-birinə bağlayan nəhəng transmilli enerji-nəqliyyat layihələrinin həyata keçirilməsində mühüm rol oynayır. İlin əvvəlində təməli qoyulmuş TANAP layihəsi də daxil olmaqla, zəngin qaz ehtiyatlarımızın dünya bazarlarına nəqli sahəsində nəzərdə tutduğumuz planların gerçəkləşdirilməsi Azərbaycanın etibarlı enerji təchizatçısı kimi beynəlxalq aləmdəki rolunu daha da artıracaq, respublikamızın gələcək inkişafı və xalqımızın rifahının yüksəldilməsi yolunda yeni perspektivlər açacaqdır.

Bu il Azərbaycan böyük idman bayramına-Birinci Avropa Oyunlarına ev sahibliyi etmişdir. Qitənin 50 ölkəsinin idmançılarının iştirakı ilə keçirilən bu tədbir yüksək səviyyədə təşkil olunmuş, beynəlxalq ictimaiyyətdə dövlətimizin potensialı, xalqımızın çoxəsrlik tarixi və zəngin mədəniyyəti, qonaqpərvərliyi və tolerantlıq ənənələri barədə müsbət təəssüratlar yaratmışdır.

Son dövrlər dünyanın müxtəlif guşələrində hərbi-siyasi münaqişələrin və iğtişaşların artmasına baxmayaraq, Azərbaycanda mövcud olan ictimai-siyasi sabitlik, hakimiyyət və xalq arasında etimad mühiti daha da möhkəmlənmişdir. Noyabr ayında demokratik və şəffaf şəraitdə keçirilmiş növbəti parlament seçkiləri də cəmiyyətin nikbin əhval-ruhiyyəsinin, xalqımızın aparılan siyasətə dərin rəğbətinin parlaq təzahürü olmuşdur.

Təəssüflə qeyd etməliyəm ki, Ermənistanın təcavüzkar siyasəti və qeyri-konstruktiv mövqeyi ucbatından hələ də həllini tapmamış Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi hamımızı narahat edən taleyüklü problem kimi qalır. Bu gün Azərbaycan Respublikası güclü iqtisadiyyata və torpaqlarımızı hər an işğalçılardan azad etməyə hazır olan qüdrətli orduya malikdir. Lakin biz yenidən qan tökülməsinin qarşısını almaq, regionda gərginliyi artırmamaq məqsədilə münaqişənin beynəlxalq hüquq normaları çərçivəsində dinc yolla ədalətli həllinə çalışırıq. Hesab edirəm ki, bundan sonra da səylərimizi birləşdirməli, işğal edilmiş ərazilərimizin azad edilməsi uğrunda ardıcıl və məqsədyönlü iş aparmalıyıq. Bu sahədə diaspor təşkilatlarımızın da üzərinə mühüm vəzifələr düşür. Azərbaycanın suverenliyinin qorunması və ərazi bütövlüyünün təmin edilməsinə öz həmrəyliyimiz və birgə fəaliyyətimizlə sanballı töhfə vermək bizim başlıca amalımız olmalıdır.

Sizi Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibəti ilə səmimi-qəlbdən təbrik edir, hər birinizə xoşbəxtlik, firavanlıq və işlərinizdə uğurlar arzulayıram.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

## DEKABR AYININ RƏSMİ XRONİKASI

Dekabrın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Naxçıvan Muxtar Respublikasına səfərə gəlib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Naxçıvan Beynəlxalq Hava Limanının «Şərq Terminalı» ilə tanış olub.

Dekabrın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqımızın ümummilli lideri Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində ucaldılan abidəsini ziyarət etdi. Naxçıvana səfəri çərçivəsində yenidən qurulmuş Şəkərabad-Babək qəsəbə-Nehrəm-Arazkənd dairəvi avtomobil yolunun, şəhər 2 saylı uşaq musiqi məktəbinin, Naxçıvan Muxtar Respublika Xəstəxanasının, Naxçıvan Sənaye Kompleksinin, Naxçıvan Günəş Elektrik Stansiyasının açılışında, Naxçıvan şəhərdaxili su şəbəkəsinin istifadəyə verilməsi mərasimində iştirak edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 2-də Ukrayna Prezidenti Administrasiyasının rəhbəri Boris Lojkinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 2-də Bakı Ekspo Mərkəzində «Baku Tel-2015» XXI Azərbaycan Beynəlxalq telekommunikasiya və informasiya texnologiyaları sərgisi ilə tanış olub.

Dekabrın 3-də Azərbaycan Respublikasına rəsmi səfərə gələn Türkiyə Respublikasının Baş naziri Əhməd Davudoğlunun rəsmi qarşılanma mərasimi olub. Mərasim başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Baş naziri Əhməd Davudoğlu ilə təkbətək, daha sonra geniş tərkibdə görüşü olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 8-də Çin Xalq Respublikasına dövlət səfərinə gəlib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dövlət səfəri çərçivəsində dekabrın 9-da Sian şəhərindəki Terrakota Ordusu (yeraltı heykəllər ordusu) Muzeyi ilə tanış olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dekabrın 9-da Çinin Şaansi vilayətinin qubernatoru Lou Çincyan ilə görüşü olub. Sian şəhərində Şaansi avtomobil zavodu ilə tanış olub. Çin Xalq Respublikasına dövlət səfəri çərçivəsində dekabrın 10-da Pekində Paytaxt Muzeyi ilə tanış olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 10-da «Huawei» şirkətinin Pekindəki Sərgi Mərkəzində olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dekabrın 10-da Çin Xalq Respublikası Dövlət Şurasının Baş naziri Li Keçyan ilə görüşü olub.

Çin Xalq Respublikasında dövlət səfərində olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dekabrın 10-da Ümumçin Xalq Nümayəndələri Yığıncağında-parlamentdə rəsmi qarşılanma mərasimi olub. Qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Çin Xalq Respublikasının Sədri Si Cinpinin geniş tərkibdə görüşü olub. Geniş tərkibdə görüş başa çatdıqdan sonra dekabrın 10-da Azərbaycan-Çin sənədlərinin imzalanması mərasimi olub.

Çin Xalq Respublikasında dövlət səfərində olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə dekabrın 11-də Renmin Universitetinin «Tarix üzrə fəxri professor» diplomunun təqdim edilməsi mərasimi keçirilib.

Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatından 12 il keçir. Dekabrın 12-də Azərbaycan Prezidenti İlham Əliyev və oğlu Heydər Əliyev Fəxri xiyabana gələrək, xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət etdilər.

Milli Məclisin deputatları, nazirlər, komitələrin, şirkətlərin və idarələrin rəhbərləri, respublika ictimaiyyətinin nümayəndələri də Fəxri xiyabana gəlmişdilər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ATƏT-in Minsk qrupunun həmsədrlərinin təşəbbüsü ilə keçirilən Azərbaycan və Ermənistan prezidentlərinin görüşündə iştirak etmək üçün dekabrın 18-də İsveçrə Konfederasiyasının Bern şəhərinə gəlib.

Dekabrın 22-də Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qaninin rəsmi qarşılanma mərasimi olub. Rəsmi qarşılanma mərasimi başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qani ilə təkbətək, sonra isə geniş tərkibdə görüşü olub.

Geniş tərkibdə görüş başa çatdıqdan sonra Prezident İlham Əliyevin və Prezident Məhəmməd Qaninin iştirakı ilə Azərbaycan-Əfqanıstan sənədlərinin imzalanması mərasimi olub.

Dekabrın 23-də Milli Olimpiya Komitəsində 2015-ci ilə yekun vurulub, idmançılara və idman mütəxəssislərinə mükafatların təqdim edilməsi mərasimi keçirilib. Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mərasimdə iştirak ediblər.

Dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın iştirakı ilə paytaxtın Nərimanov rayonunda gözdən əlillər üçün inşa olunan yaşayış binası istifadəyə verilib.

Dekabrın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xəzər rayonunda 110 kilovoltluq «Buzovna-2», 35 kilovoltluq «Sarıqaya», «Fatmayı», «Məhəmmədi», eləcə də 221, 229, 86 və 87 saylı yarımstansiyaların açılışlarında iştirak edib.

**AZƏRTAC**

## BÖYÜK XİLASKARIN ƏZİZ XATİRƏSİ DƏRİN EHTİRAMLA YAD EDİLMİŞDİR

«Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olub. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib.»

Bütün həyatı və fəaliyyəti boyu həmişə öz xalqına arxalanan Heydər Əliyev qürur hissi ilə belə demişdi. Hər bir xalqın tarixini məhz onun dahi insanları, böyük şəxsiyyətləri yaradır. Azərbaycanın müasir tarixinin 30 ildən çox davam edən və öz miqyasına görə əsrə bərabər olan böyük bir dövrü ümummilli liderimiz Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlıdır.



Bəli, hər bir azərbaycanlının fəxr etdiyi, Azərbaycanın həyatına böyük rəhbər kimi daxil olmuş dahi bir insan var. Bütün dünyanı heyrətə salan Heydər Əliyev fenomeni. Bu gün hamının dilinin əzbəri olan, ehtiramla yad edilən Ulu Öndərin keçdiyi həyat yolunu izlərkən onun məhz xalq üçün, Vətən üçün yaşadığının şahidi olursan.

Heydər Əliyev XX əsrin son qərinəsində qədim bir dövlətə, ulu bir xalqa rəhbərlik etdi, xalqına güvənib yüksəldi və özü ilə bərabər xalqını da tarixin qızaran üfüqlərinə ucaltdı. Neçə onilliklər, əsrlər keçəcək, tarix onu zaman-zaman xatırlayacaq. Onun milli sərvətimiz olan irsini hələ yeni-yeni nəsillər öz gözü ilə, öz qəlbi və zəkasının yeni imkanları ilə oxuyacaq və hər dəfə onu yenidən dərk edəcəklər. Hər gələn nəsil əmin olacaq ki, həqiqətən də, Heydər Əliyev öz xalqının taleyində müstəsna rol oynayan, Vətənin dar günündə onun imdadına yetişən, müqəddəs xilaskarlıq və quruculuq missiyasını üzərinə götürən siyasət dahilərindən biridir.

Ulu Öndərin ideyaları, əməlləri və özü xalq üçün həmişə yaşayır və yaşayacaq. Onun əbədiyyətə qovuşmasından düz 12 il keçsə də hər dəfə Azərbaycan deyəndə göz önündə qüdrətli dövlət xadimi Heydər Əliyev canlanır, şanlı ömür yolunun salnaməsi bir daha vərəqlənir.

Ölkəmizin hər yerində olduğu kimi, rayonumuzda da rayon mərkəzində və yaşayış məntəqələrində bu münasibətlə anım mərasimləri keçirilmişdir. Dekabrın 12-də Ulu Öndərimiz Heydər Əliyevin vəfatının ildönümü ilə əlaqədar şəhərin mərkəzi meydanında keçirilən ümumrayon anım mərasimində Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı cənab Asif Hüseynov, digər rəhbər işçilər, idarə, müəssisə və təşkilatların kollektivləri, yüzlərlə siyəzənli iştirak etmişdir.

Mərasim iştirakçıları Ulu Öndərin əzəmətli abidəsini ziyarət etmiş, buraya əklillər və gül dəstələri düzmüşlər. Ulu Öndərin xatirəsi dərin ehtiram aə minnətdarlıqla yad edilmişdir.

Daha sonra «Çıraqqala» sarayında Ulu Öndərin anım günü ilə əlaqədar ehsan süfrəsi açılmışdır. Mərasimdə iştirakçılar tərəfindən ümummilli lider Heydər Əliyevin əziz xatirəsi yad edilmiş, ruhuna dualar oxunmuşdur.

**R. MURADOVA.**

# SƏYYAR QƏBULLAR DAVAM EDİR



Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı cənab Asif Hüseynovun müəyyən olunmuş qrafikə uyğun olaraq əhali ilə görüşləri davam edir. Cənab başçının qeyd etdiyi kimi, möhtərəm Prezidentin tapşırığına əsasən, rayonun ayrı-ayrı yaşayış məntəqələrində təşkil olunan belə görüşlər, eyni zamanda, sakinlər tərəfindən də böyük rəğbətlə qarşılanır. Keçirilən səyyar qəbullar kənd əhalisi ilə daha sıx təmas qurmağa imkan yaratmaqla yanaşı, həm də rayon mərkəzindən uzaqda yaşayan insanların vaxtının səmərəli təşkil olunmasını da asanlaşdırır.

Bu sıradan Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı cənab Asif Hüseynovun Məşrif kənd əhalisi ilə görüşü də əhəmiyyətli oldu. Kənd camaatının üzləşdiyi problemlər və onların həlli yolları bir daha araşdırıldı, aidiyyəti şəxslərə nəzarətdə saxlanılması tapşırıldı. Qarşıya çıxan hər bir sualın mütləq şəkildə araşdırılacağı, həllinin mümkünlüyü barədə məlumatın əldə ediləcəyi onların nəzərinə çatdırıldı. Ümumiyyətlə, görüşdə qarşıya çıxan məsələlərin gerçəklik dərəcəsinə uyğun olaraq həlli barədə cənab başçı tərəfindən aidiyyəti şəxslərə göstərişlər verildi.

Qeyd etməliyik ki, görüş iştirakçılarında müşahidə etdiyimiz əhval-ruhiyyə əhalinin istər rayon rəhbərliyinə, istərsə də ölkə Prezidentinə dərin inamını ifadə edirdi. Diqqətlə dinlənilmələri, problemlərinə reaksiya verilməsi, inamla deyə bilərik ki, görüşə gələnləri qane edirdi.

**«ÇIRAQ»**

# ABADLIQ YOLDAN BAŞLAYIR

**2015-ci ili başa vurmaq üzrəyik. Soyuq qış öz yağışı, qarı, şaxtası ilə qapımızı döyməkdədir.**

Havaların soyumasına baxmayaraq şəhərimizdə tikinti-quruculuq, abadlıq işləri öz ahəngi ilə davam edir. Rayon rəhbərliyinin, şəxsən hörmətli İcra başçımız Asif Hüseynovun təşəbbüsü ilə şəhərin bir sıra məhəllələrində asfalt örtüyü təzələnmiş, küçələrin, gediş-gəliş çox olan ərazilərin abadlaşdırılması və lazımınca işıqlandırılması istiqamətində bir sıra işlər görülmüşdür. Belə ki, Füzuli küçəsində 4400 kvm. əraziyə asfalt örtüyü verilmiş, şəhər qəbirstanlığına gedən yol qaydaya salınmışdır. Şəhriyar küçəsində 9200 kvm., Babək küçəsində 1000kvm., T. İsmayılov küçəsində 4200kvm., M. Zəkiyev küçəsində 2365 kvm. yola yeni asfalt verilmişdir. A. Mustafayev, H. Aslanov küçələrində də yollar abadlaşdırılmış, təzə örtük çəkilmişdir. Şəhər Mədəniyyət Sarayının, eləcə də növbətçi mağazanın ətrafında da əraziyə asfalt verilmişdir. Həmçinin adları çəkilən ərazilərdə məhəllələrə asfalt verilməklə yanaşı, digər təmizlik və abadlıq işləri də görülmüşdür.

B. Bayramov küçəsinə isə çınqıl tökülüb, yollar səliqəyə salınmaqdadır. Şəhərin yeni yaşayış massivlərindən olan A. Zahirov küçəsində məhəllədaxili yollar təmizlənir, qreyderlərlə düzlənib asfalt verilmək üçün hazırlanır.

Hiss edirik ki, küçələrdə yolların qaydaya salınması, abadlaşdırılması sakinlərin ürəyincədir. Axı abad yol həm də mədəniyyətdir, rahatlıqdır. Nahaq söyləməyiblər ki, abad şəhər yollarından bəllidir.

Onu da bildirmək istəyirəm ki, havalar imkan verdikcə şəhərin digər küçələrində də təmizlik, abadlıq işləri davam etdiriləcəkdir. Bir neçə gündən sonra qədəm qoyacağımız 2016-cı ildə də sakinlərin rahatlığı üçün şəhərin digər küçələrində bu istiqamətdə müntəzəm işlər görüləcəkdir.

**Mais SÜLEYMANOV,**
**Siyəzən Rayon İcra Hakimiyyəti başçısının Siyəzən şəhəri üzrə nümayəndəsi.**

# İMƏCİLİKLƏR DAVAM EDİR

Bizim şəhərimiz həm də bizim evimizdir. Onun abadlığı, təmizliyi qayğısına da hamılıqla qalmalıyıq. Bu, bizim hər birimizin vətəndaşlıq borcumuzdur.

Həftənin şənbə günlərində şəhərimizdə iməciliklər keçirilir. Şəhər daxilində yerləşən idarə, müəssisə və təşkilatların kollektivləri iəmciliklərdə iştirak edərək çalışdıqları inzibati binaların ətrafında səliqə-sahman yaradır, təmizlik işləri görürlər. Bu qəbildən Kommunal Müəssisələri Kombinatının fəaliyyəti daha təqdirəlayiqdir. Belə ki, idarənin əməkdaşları tərəfindən şəhərin bir neçə istiqamətində, yaşayış məhəllələrinin ərazisində ümumi görunuşə xələl gətirən köhnə çəpərlər sökülmüş, ərazi kolkosdan təmizlənmişdir.

İşlər yüksək ahəngdarlıqla davam edir. Görülən bütün işlər rayon rəhbərliyinin, şəxsən hörmətli Asif Hüseynovun ciddi nəzarəti altındadır.

**«ÇIRAQ»**

# 31 dekabr-Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü

Bu gün dünyada 50 milyondan çox azərbaycanlı yaşayır. Azərbaycanlılar minilliklər boyu özlərinin tarixi torpağı olan Azərbaycan ərazisində yaşayaraq, bəşər sivilizasiyasına böyük töhfələr veriblər. Müharibələr, inqilablar, hərbi münaqişələr, dünyada gedən ictimai-siyasi proseslər nəticəsində Azərbaycan parçalanıb, azərbaycanlıların bir qismi yurd-yuvalarından didərgin salınıb, deportasiyalara məruz qalıb, iş tapmaq, təhsil almaq məqsədi ilə doğma Vətəni tərk edərək başqa ölkələrdə məskunlaşıblar. Hazırda dünyanın hər yerində azərbaycanlılar yaşayırlar.

Uzun bir dövr Vətəndə yaşayan azərbaycanlılar başqa ölkələrdə məskunlaşmış həmvətənliləri ilə görüşmək, əlaqələr yaratmaq imkanından məhrum olublar. Sovet dövlətinin qadağaları qardaşın qardaşla görüşməyinə imkan vermirdi. Sovet rejiminin zəifləməyə başladığı 1980-cı illərin sonlarında Azərbaycan xalqı öz həmvətənləri ilə əlaqələr yaratmaq üçün səylərini artırdı.

Dünya Azərbaycanlılarının Həmrəylik Gününün əsası 1989-cu il dekabrın axırlarında Naxçıvanda sərhədlərin (SSRİ-İran sərhədləri) dağılması zamanı qoyuldu. Bu vaxt İstanbulda türkdilli xalqların Konfransı keçirilirdi. Konfrans da dünya azərbaycanlılarının həmrəyliyinin qeyd olunmasına qərar verdi.

1991-ci ilin 16 dekabrında Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sədri Heydər Əliyev dünya azərbaycanlılarının birliyini yaratmağın əhəmiyyətini nəzərə alaraq, dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan etdi. Beləliklə, bütün azərbaycanlılar üçün əziz olan 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi qeyd edilir.

**Rauf MALIŞOV,**
**Siyəzən rayon prokurorunun böyük köməkçisi, II dərəcəli hüquqşünas.**

# Siyəzən Rayon İcra Hakimiyyəti başçısı aparatında vətəndaşların qəbulu CƏDVƏLİ

| Sıra № | Vəzifəsi | Soyadı, adı və atasının adı | Qəbul günü | Qəbul saatı |
|---|---|---|---|---|
| 1 | Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı | Hüseynov Asif Həbib oğlu | çərşənbə axşamı | saat 11:00-dan başlayır |
| 2 | Başçının müavini-Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri | Əliyev Zəfər Nüsrət oğlu | bazar ertəsi | saat 14:00-dan başlayır |
| 3 | Başçının müavini-İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri | Bəxtiyarova Təhminə Vahid qızı | çərşənbə | saat 14:00-dan başlayır |
| 4 | Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri | Bəşirov Xaqani Paşa oğlu | cümə | saat 11:00-dan başlayır |
| 5 | Hüquq şöbəsinin müdiri | Əliyev Şəmşad Məcid oğlu | şənbə | saat 11:00-dan başlayır |
| 6 | Memarlıq və tikinti şöbəsinin müdiri-baş memar | Novruzov Səxavət Mehdi oğlu | bazar ertəsi | saat 10:00-dan başlayır |
| 7 | Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri | Mursaquliyev Feyyaz Lətifulla oğlu | cümə axşamı | saat 10:00-dan başlayır |
| 8 | İnformasiya təminatı və təhlil sektorunun müdiri | Mürvətov Rəhman Nəcməddin oğlu | çərşənbə | saat 10:00-dan başlayır |

**Qeyd:** 1. Milli qəhrəman və onların ailə üzvləri, şəhid ailəsi üzvləri, Qarabağ əlilləri və digər imtiyazlı şəxslər növbədənkənar qəbul olunurlar.
2. Rayon İcra Hakimiyyəti başçısının qəbulu günləri bayram günlərinə düşdükdə qəbul növbəti iş gününə keçirilir.
3. Vətəndaşların qəbulu ilə əlaqədar əlaqə telefonu: (23) 304-00-10

# Siyəzən Rayon İcra Hakimiyyəti başçısının 2016-cı ilin yanvar ayında keçirəcəyi səyyar qəbulların QRAFİKİ

| Sıra №-si | Qəbulun keçiriləcəyi yer | Tarix | Saat |
|---|---|---|---|
| 1 | Eynibulaq kəndi, kənd tam orta məktəbin binası | 08.01.2016 | 15:00 |
| 2 | Dağqușsu kəndi, kənd klubunun binası | 15.01.2016 | 15:00 |
| 3 | Qozağacı kəndi, kənd ümumi orta məktəbin binası | 22.01.2016 | 15:00 |
| 4 | Tuğay kəndi, kənd ümumi orta məktəbin binası | 29.01.2016 | 15:00 |

# Dövlət orqanlarının yerli qurumlarında vətəndaşların qəbulu CƏDVƏLİ

| Sıra №-si | Vəzifəsi | Soyadı, adı və atasının adı | Qəbul günü və saatı |
|---|---|---|---|
| 1. | Siyəzən Rayon Gənclər və İdman İdarəsinin rəisi | Məmmədov Nadir Əmrulla oğlu | Cümə günü, saat 10:00-dan başlayır |
| 2. | Siyəzən Rayon Təhsil Şöbəsinin müdiri | Hacıyev Rəfail Məmmədrıza oğlu | Bazar ertəsi günü, saat 10:00-dan başlayır |
| 3. | Siyəzən Telekommunikasiya Qovşağının rəisi | Kəbirov Rafiq Kəbir oğlu | Hər iş günü, saat 15:00-dan başlayır |
| 4. | Siyəzən Regional Müalicə Diaqnostika Mərkəzinin baş həkimi | Hümbətov Dadaş Ümüd oğlu | Hər iş günü, saat 11:00-dan başlayır |
| 5. | Siyəzən rayon Mərkəzi Poliklinikanın baş həkimi | Cəlalov Mirələm Rahim oğlu | Hər iş günü, saat 10:00-dan başlayır |
| 6. | Siyəzən rayonu Gigiyena və Epidemiologiya Mərkəzinin direktoru | Yaqubov Mehman Nəcməddin oğlu | Bazar ertəsi günü, saat 10:00-dan başlayır |
| 7. | Xaçmaz Regional Qaz İstismar İdarəsinin Siyəzən Xidmət Sahəsi üzrə rəis müavini | Camalov Elmir Eldar oğlu | Çərşənbə axşamı və cümə axşamı günü, saat 15:00-dan başlayır |
| 8. | Sukanal İdarəsinin rəisi | Yusifov Bəhram İmran oğlu | Çərşənbə axşamı və cümə günü, saat 15:00-dan başlayır |
| 9. | Dövlət Sosial Müdafiəsi Fondunun Siyəzən rayon şöbəsinin müdiri | Yunusova Güllər Cabir qızı | Cümə günü saat 16:00-dan başlayır |
| 10. | Siyəzən rayon Əhalinin sosial müdafiəsi mərkəzinin direktoru | Yusifova Kamilə Şəmsəddin qızı | Çərşənbə axşamı və cümə axşamı günü, saat 10:00-dan başlayır |
| 11. | Siyəzən Meşə Mühafizəsi və Bərpası Müəssisəsinin direktor əvəzi | Əlizadə Alim Vidadi oğlu | I, III, IV günlər, saat 11:00-dan başlayır |
| 12. | Siyəzən rayon Baytarlıq İdarəsinin rəisi | Qasımov Seyfulla Eynulla oğlu | Çərşənbə günü, saat 10:30-dan başlayır |
| 13. | Siyəzən rayon Məşğulluq Mərkəzinin direktoru | Eyvazov Vahid Nəcəfağa oğlu | Çərşənbə günü, saat 10:00-dan başlayır |
| 14. | Siyəzən rayonu üzrə Maliyyə Şöbəsinin rəisi | Nemətov Samir Sabir oğlu | Cümə günü, saat 10:00-dan başlayır |
| 15. | «Azərpoçt» MMC-nin Siyəzən Poçt Filialının rəisi | Əliyev Akif Hacı oğlu | Bazar ertəsi və cümə axşamı günü, saat 14:00-dan başlayır |
| 16. | Siyəzən Rayon Mədəniyyət və Turizm şöbəsinin müdir əvəzi | Qədirli Zəminə Əlikram qızı | Cümə günü, saat 10:00-dan başlayır |

**Qeyd:** 1. Milli qəhrəman və onların ailə üzvləri, şəhid ailəsi üzvləri, Qarabağ əlilləri və digər imtiyazlı şəxslər növbədənkənar qəbul olunurlar.

# HƏMYERLİMİZ-TANINMIŞ ALİM



İnsan yarandığı gündən mübarizə aparır. O, dünyayla, ətraf mühitlə, qarşısına çıxan çətinliklərlə daim mübarizədədir. Məqsədə gedən yolda müxtəlif maneələrlə qarşılaşır insan: bəzən öz yolundan dönmək istər, bəzənsə əksinə, daha inamlı addımlarla irəliləyər öz hədəflərinə doğru. Daxilindəki gücə, bacarığa güvənər, inamı artar özünə, heç nədən qorxmadan kiçik addımlar atar. Və elə bu kiçik addımlar onu böyük uğurlara doğru aparar

Haqqında danışacağım insan da məhz öz məqsədinə çatmaq üçün inadla mübarizə aparandır. Onun həyatına, keçdiyi ömür yoluna, qazandığı uğurlara nəzər saldıqda bir daha şahidi oluruq ki, bəli, həyat hərəkətsizliyi sevmir. Həyat mübarizə aparanları, yaşamaq üçün məqsədi olanları sevir.

1960-cı ildə Siyəzən rayonunun Dağquşçu kəndində sadə bir əməkçi ailəsində anadan olmuş həmyerlimiz Taləddin Bağırova həsr olunub bu yazı.

Hələ uşaq yaşlarından qarşısına qoyduğu məqsədə doğru inamla addımlayan qəhrəmanımızın hal-hazırda əldə etdiyi nailiyyətlərə baxdıqda onun həyat mübarizəsinin hədər getmədiyinin şahidi oluruq. Gənc yaşlarından öz çalışqanlığı və məqsədyönlülüyü ilə hamıdan seçilən T. Bağırov təkcə hamı kimi savad almaq haqqında düşünmürdü. O, qarşısına hamıdan seçilmək, öz ailəsinə, təmsil etdiyi el-obaya daha çox ad-san qazandırmaq kimi mühüm hədəflər qoymuşdu.

Kəndin hörmətli şəxslərindən olan Orucqulu kişinin ən böyük arzusu idi övladlarını ali savadlı, xalqına layiqli bir vətəndaş kimi böyütmək. Bunun üçün çalışır, onları doğru yola istiqamətləndrirdi. Övladları da valideynlərinə layiq olmağa, onların arzularını yerinə yetirməyə çalışırdılar. Bu ruhda tərbiyə almışdır T. Bağırov. Artıq məktəb illərindən yalnız bunu düşünürdü-Etməliyəm Onların ümidlərini doğrultmalıyam. Elə də olur.

1977-ci ildə Azərbaycan Dövlət Universitetinin Fizika fakültəsinə daxil olur. 1982-ci ildə bu fakültəni fərqlənmə ilə bitirərək fizika müəllimi ixtisasına yiyələnir. Lakin bununla kifayətlənməyən gənc daha böyük uğurlar əldə etməli idi. Əldə etdiyi bilikləri artırmalı, elmi nailiyyətlər əldə etməli idi. Elə bu məqsədlə də SSRİ EA-nın A. N. Nesmeyanov adına Üzvü birləşmələr İnstitutuna elmi ezamiyyətə gedir. 1988-ci ildə namizədlik dissertasiyası müdafiə edib Fizika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsi almışdır. Təhsil aldığı elm ocağında özü dərs deməyə başlamış, 2000-ci ildən Maddə quruluşu kafedrasının dosenti, 2005-ci ildən isə BDU-nun dosenti elmi dərəcəsini almışdır. T. Bağırov 2011-ci ildə «Polimer-su ikifazalı sistemlərinin hal diaqramlarının və bir sıra bioloji təbiətli maddələrini nisbi hidrofobluqlarınnın tədqiqi» mövzusunda doktorluq alimlik dərəcəsi almışdır. Artıq alim kimi yetişən T. Bağırov özü də neçə-neçə gənc alimin yetişməsində əhəmiyyətli rol oynayır. Mühazirələr oxuyur, dissertasiya işlərinə rəhbərlik edir. Elmi-tədqiqat işlərini molekulyar fizik və bioloji sistemlər fizikasına həsr edən alim sadəcə bununla kifayətlənməmiş, yeni üsul və metodların kəşfi ilə də məşğul olmuşdur.

Hal-hazırda ABŞ-da işləyən professor B. Y. Zaslovski və E. Ə. Məsimov ilə birgə yüksəkmolekullu birləşmələrin sulu məhlulların son zamanlara qədər eksperimental təyin oluna bilməyən nisbi hidrofobluqların kəmiyyətcə qiymələndirməyə imkan verən yeni metod hazırladılar. Metodun əhəmiyyəti ondan ibarətdir ki, bu metod sayəsində qanda kliniki metodlarla təyin oluna bilməyən patalogiyaları aşkar etmək mümkün olmuşdur.

T. Bağırovun mühüm elmi araşdırmalarının bir qismi nüvə maqnit rezonansı metodu ilə suyun strukturunun tədqiqinə həsr olunub. Bu araşdırma elm aləminə ciddi mübahisələrə səbəb olmuş və alim suyun yaddaşa malik olması fikrini təcrübi olaraq sübut etmişdir. Su-polimer sistemlərinin fazalara ayrılmasının molekulyar aspektlərini tədqiq edərək Azərbaycan elmi üçün yeni və əhəmiyyətli olan cəsarətli fikir və hipozetlər irəli sürmüşdür.

Elə bu məqamda belə bir fikir yada düşür. Belə deyirldər ki, Yaradanın yaratdıqlarını kəşf edənə alim deyilir. Yaradanın yaratdıqları isə elm adlanır. T.Bağırov öz elmi araşdırması ilə sanki bunu sübut etməyə çalışıb.

İslam dininin müqəddəs kitabı olan «Qurani Kərim»-də su haqqında belə buyurulur: «Bəs içdiyiniz suya nə deyisiniz? Onu buluddan endirən sizsiniz, yoxsa biz? Əgər istəsəydik, onu acı (bir su) edərdik, elə isə niyə Allahın nemətlərinə şükür etmirsiniz?» (Vaqiə surəsi, 68-70) Susuz həyatın mövcud olması mümkün deyil. Su həyatın əsas ünsürü kimi Allahın xüsusi olaraq yaratdığı, hər növ fiziki və kimyəvi xüsusiyyəti ilə həyat üçün var etdiyi bir maddədir.

Deməli, T. Bağırov tanrının yaratdığı su kimi möcüzəli, bir o qədər də əhəmiyyətli nemətin dəyərini bir daha vurğulamış, bizləri də bu haqda düşünməyə vadar etmişdir. Alimin elmi tədqiqatlarından gəldiyi nəticəyə görə canlı orqanizmlər strukturlu suda daha yaxşı fəaliyyət göstərir. Orqanizmə strukturu dağılmış su daxil olduqda isə orqanizm onu strukturlaşdırmaq üçün əlavə enerji sərf edir. Yəni T. Bağırov elə alimlərdəndir ki, o yaradanın yaratdıqlarını kəşf edib araşdırıb, tanrının böyüklüyünü insanlara bir daha xatırladaraq bizi daha dərin düşünməyə, həyatın-yaradılışın mənasını dərk etməyə məcbur edir. Suyun yaddaşının olmasını sübut etməklə o bir daha göstərdi ki, yaradan yaratdıqlarını səbəbsiz və təsadüfi deyil, onları aşkar etmək, mənasını açmaq, insanlara anlatmaq hər insana nəsib olmur. Bir sözlə, el-obamızın. bölgəmizin yetişdirdiyi ziyalılar içərisində öz sözünü demiş bir alimdir T. Bağırov. Onunla bağlı bir məlumatı qeyd etməsəm olmaz.

Həmyerlimiz şair N. Mürvətovun bu yaxınlarda növbəti kitabı işıq üzü görüb Kitabla tanış olduqda müəllifin bir yazısı diqqəti cəlb edir. Bu yazının yazılma tarixi ilə maraqlandıqda məlum oldu ki, yazının yazılma səbəbi elə yazımın qəhrəmanıdır..Yazıda müəllif qeyd edir ki, o bir işə həvəssiz başlayır və onu bir növ «başdan etmək» istəyir. T. Bağırov da müəllifə məsləhət verir və bu məsləhət onu tamamilə başqa cür düşünməyə məcbur edir.

«Kömək etmir Allah könülsüz görülən işlərdə heç kimə. Susdu. Mən də susdum. Haqlı idi, çox haqlı idi. Başqalarına yaxınlaşma, dostlarıma, doğmalarıma başa salmalıydım bu hikməti.»

Bir sözlə, Respublika və dünya miqyasında elmi ictimaiyyətə yaxından tanış olan 150-dən çox məqalə, 2 dərs vəsaiti müəllifi olan T. Bağırovu biz də bir həmyerlimiz kimi az da olsa sizlərə tanıtmağa çalışdıq.

Ömrünü Azərbaycan elminin inkişafına həsr edən Taləddin Bağırova elmi araşdırmalarında xüsusi yer verdiyi, tanrının ilahi möcüzəsi su qədər təmiz və uzun ömür, fəaliyyətində yeni-yeni uğurlar arzulayırıq.

**Şəhla NADİROVA,**
**1 saylı tam orta məktəbin dil-ədəbiyyat müəllimi.**

# DƏYİRMİ-MASA KEÇİRİLMİŞDİR

10 dekabr 2015-ci il tarixdə Heydər Əliyev Mərkəzində «Heydər Əliyev müasir Azərbaycan dövlətçiliyinin banisidir» mövzusunda dəyirmi-masa və həmin mövzuda rayon tam orta məktəblərinin şagirdləri arasında elan edilmiş inşa-yazı müsabiqəsinin



qaliblərinin mükafatlandırılması mərasimi keçirilmişdir.

Rayon Gənclər və İdman idarəsinin, Təhsil şöbəsi və YAP Siyəzən rayon Təşkilatı ilə birgə təşkil etdiyi tədbirdə müəllim və şagirdlərlə yanaşı, Rayon İcra Hakimiyyətinin nümayəndələri də iştirak etmişdir.

Ümummilli liderin xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir. Tədbir iştirakçıları tərəfindən muzeydə olan foto-stendlərə baxış keçirilmiş, şagirdlərə tarixi sənədlər və şəkillər əsasında ümummilli lider Heydər Əliyevin həyatı və dövlət xadimi kimi fəaliyyəti haqqında geniş məlumat verilmişdir.Qeyd edilmişdir ki, Azərbaycan gənclərinin günümüzün müasir, inkişaf etmiş, yüksək intellektli aparıcı qüvvə kimi formalaşmasında, birmənalı olaraq, dövlətimizin apardığıgənclər siyasətinin mühüm rolu olmuşdur. Bu siyasətin banisi isə xalqımızın ümummilli lideri Heydər Əliyevdir.

Tədbirdə ümummilli liderin keçdiyi həyat yolundan bəhs edən sənədli film nümayiş etdirildi.

Daha sonra müsabiqənin nəticələrinə görə yer tutan şagirdlərin adları elan edilərək tədbir təşkilatçıları tərəfindən fəxri-fərman və qiymətli hədiyyələrlə mükafatlandırıldı. 55 nəfər şagirdin inşa-yazılarının təqdim olunduğu müsabiqənin nəticəsinə əsasən, şəhər 2 saylı tam orta məktəbin şagirdi Fidan Bayramova I, 3 saylı tam orta məktəbin şagirdi Zərifə İsmayılova II, 1 saylı tam orta məktəbin və şəhər 6 saylı lisey-məktəbin şagirdləri Ləman Ağayeva və Səbinə Talıbova III yeri tutdular. Həvəsləndirici yerlərə isə 1 saylı tam orta məktəbin şagirdi Firəngiz Kərimova, 2 saylı tam orta məktəbin şagirdləri İmran Ağayev və Xatirə Ağamalıyeva, 3 saylı tam orta məktəbin şagirdi Gülbəyaz Nəcəfova, 4 saylı tam orta məktəbin şagirdi Nərmin İsmayılzadə, 5 saylı tam orta məktəbin şagirdi Şəbnəm Novruzova, 6 saylı məktəb-liseyin şagirdi Ləman Bəylərova, Gilgilçay qəsəbə tam orta məktəbin şagirdi İlahə Yarıyeva, Zarat kənd tam orta məktəbin şagirdi Xədicə Seydəmirova, Məşrif kənd tam orta məktəbin şagirdi Gültəkin Əsədova və Böyük Həmyə kənd tam orta məktəbin şagirdi Ramilə Xəlfəyeva layiq görüldülər.

**Nadir MƏMMƏDOV,**
**Gənclər və İdman idarəsinin rəisi.**

# FUTBOLÇULARIMIZIN UĞURU



Bildiyiniz kimi, Siyəzən rayon Uşaq Gənclər İdman Məktəbinin Futbol komandası artıq neçə ildir ki, fəaliyyətdədir. Məktəbimizə rayonumuzun şəhər, kənd və qəsəbələrindən böyük ümidlərlə üz tutan yeniyetmələrə futbolun sirlərini aşılamaq, onları gələcəyin məşhur futbolçuları kimi yetişdirmək, rayonumuzun, Vətənimizin layiqli təmsilçiləri kimi cəmiyyətə təqdim etmək məqsədilə əlimizdən gələni əsirgəmirik. Bu müddət ərzində müxtəlif yarışlarda, çempionatlarda iştirak etmişik, qələbələrlə sizləri sevindirmişik.

Hazırda UGİM (Siyəzən) komandası yeni çempionatda iştirak edir. Belə ki, 2015-2016-cı il mövsümü üçün Azərbaycan Futbol Federasiyaları Assosiasiyası (AFFA) tərəfindən Azərbaycan çempionatına vəsiqə qazanmaq uğrunda Şimal zonası üzrə çempionat keçirilir. Məktəbimiz çempionatda 4 yaş qrupunda (U-10, U-11, U-12, U-13) rayonumuzu təmsil edir. Böyük ümidlərlə qoşulduğumuz bu çempionata UGİM (Siyəzən) komandası 3 yaş qrupunda (U-10, U-11 və U-12) turnir cədvəlində ilk pillədə qərarlaşıbdır. Çempionatın bitməsinə hələ bir tur qalmağına baxmayaraq, komandalarımız vaxtından əvvəl çempionluğu özlərinə təmin etmiş və Play off mərhələsinə vəsiqə qazanmışlar.



Rayonumuzun şimal zonasında 3 yaş qrupunda vaxtından əvvəl çempion olması, əlbəttə ki, qürurverici bir haldır.

Sonda onu da qeyd etmək istərdim ki, 2015-2016-cı il mövsümü üçün U-10 və U-11 liqasında çıxış edən UGİM (Siyəzən) komandasına sponsorluq edən AXA MBASK Sığorta Şirkətinin rəhbərliyinə öz adımdan, rayonumuzun futbolsevərləri, eləcə də Siyəzən Futbol komandasının kollektivi adından dərin minnətdarlığımı bildirirəm.

**Emin NƏZƏROV,**
**UGİM (Siyəzən) komandasının Baş məşqçisi.**

*Pedaqoji düşüncələr*

# KÖRPƏ KÖNÜLLƏRİN BÖYÜK DÜNYASI

Təlimlə yanaşı, şagirdlərin yaradıcılıq qabiliyyətlərini üzə çıxarıb inkişaf etdirmək müəllimin uğurudur. «İstedadsız insan yoxdur» deyirlər. Bu mənada hər bir şagird öz-özlüyündə unikaldır. Mühüm olan isə şagirdin daxilindəki istedad və qabiliyyəti üzə çıxarmaqdır.

Ömrümün nə az, nə çox-düz 20 ilini həsr etdiyim Siyəzən şəhər Ş. İsmayılov adına 3 saylı tam orta məktəbində də belə şagirdlər az deyil. Fidan Əliyeva (IXa), Günel Məmmədova (IXa), Elmira Qasımova (VIIa), Leyla Əliyeva (VIIa) və başqalarının əl işlərinə baxdıqca onların kiçik ürəklərinin hərarətini duyursan. Şagirdlərimin incə duyğuları danışır sanki bu əl işlərində. Hər incəlik özlüyündə bir ideya yaradır, hər ideya özü ilə zənginlik gətirir.

Yaradıcılıq bir çoxlarının arzuladığı, amma heç də hamının nail ola bilmədiyi bir səviyyədir. Hər bir iş onun müəllifinin daxili dünyasından xəbər verir. Sakit, qaraqabaq kimi tanıdığımız bir uşağın əl işinə baxanda onun nə qədər yaradıcı və zəngin təxəyyülə malik olduğunu görürsən. Hər hansı bir əşyanı öz əlləri ilə düzəldən zaman uşaqlar diqqət və yaddaşlarını inkişaf etdirir, səliqəli və səbirli olmağa vərdiş edir. Yaradıcılıq həm də zəhmət çəkməyi, çətinliklərdən qorxmamağı tələb edir. Əldə edilmiş bilikləri yaradıcı şəkildə tətbiq etmək üçün zəngin ideyalar mühiti yaratmaq, onlara yardımçı olmaq isə mənim öhdəmə düşür.

Şagirdlərlə daha çox ünsiyyətdə olarkən onları daha yaxından tanıyıram, sanki yenidən kəşf edirəm. Onların heç bir ideya və təklifini diqqətdən kənarda qoymuram. Çalışıram hər bir şagirdimin daxılındə gizlənmiş yaradıcı insanı oyadım, onun emosional dünyasını inkişaf etdi-



rim, neqativ anlardan uzaqlaşdırım, sevincli anlarını artırım. Bir daha əmin olum: şagird təxəyyülü nəhayətsizdir və onu düzgün məcraya yönəldəndə gözəl nəticələr əldə etmək olar. Yenicə başladığımız bu layihəyə maraq göstərən şagirdlərin sayı artır. Düşünürəm ki, işlərimiz daha da təkmilləşəcək və bu layihə şagirdlərimizin yaradıcılıq çeşməsinin aşkar edilməsinə dəstək olacaq.

Ruhun gözəlliyini duymaq böyük xoşbəxtlikdir. Ruhunuz, qəlbiniz daim gözəlliklərlə rastlaşsın, gözünüz gözəlliklər görməkdən yorulmasın.

**İlhamə SULTANOVA,**
**Ş. İsmayılov adına 3 saylı tam orta məktəbin Azərbaycan dili-ədəbiyyat müəllimi.**

## ƏHALİNİN NƏZƏRİNƏ!

**Süni qiymət artımının qarşısının alınması məqsədilə 26-31 dekabr 2015-ci il tarixlərdə «Xətai» ticarət mərkəzində kənd təsərrüfatı məhsullarının satış yarmarkası keçiriləcəkdir.**

**Sahibkarlar və əhali yarmarkada iştirak etməyə dəvət olunur.**

## ƏLİLLƏRƏ QAYĞI HAMININ BORCUDUR

Birləşmiş Millətlər Təşkilatının təşəbbüsü ilə dünya miqyasında keçirilən 3 dekabr- Beynəlxalq Əlillər Günü ümummilli ilder Heydər Əliyevin müvafiq sərəncamı ilə 1994-cü ildən etibarən ölkəmizdə də qeyd edilməyə başlanmışdır.

Hazırda dünya əhalisinin təxminən 15 faizini fiziki cəhətdən qüsurlu insanlar təşkil edir. Azərbaycanda isə əhalinin 5 faizi əlilliyi olan şəxslər, sağlamlıq imkanları məhdud uşaqlardır. Respublikamızda əlil insanların artmasında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin rolu olub. Təkcə bu döyüşlərdə 12 minə yaxın vətəndaşımız əlil olmuşdur.

Ölkəmizdə əlillərin sosial müdafiəsi ilə bağlı müvafiq proqram hazırlanaraq həyata keçirilir. Proqramda əlilliyin qarşısının alınması, əlillərin reabilitasiyası və sosial müdafisəi haqqında qanunun müddəaları öz əksini tapmışdır.

Ölkə başçısının sərəncamı ilə mütəmadi olaraq müxtəlif kateqoriyalardan olan əlillərin müavinətləri artırılır. Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü, diqqət və qayğısı sayəsində bir çox əlil evləri əsaslı təmir olunub, müasir standartlara cavab verən yeni bərpa mərkəzləri yaradılıb.

Siyəzən Rayon Mədəniyyət və Turizm şöbəsinin təşkilatçılığı ilə 3 Dekabr Beynəlxalq Əlillər Gününə həsr edilmiş tədbirdə də əlil vətəndaşlara olan diqqət və qayğıdan danışılmışdır. Tədbir başlanmazdan öncə iştirakçılar Mədəniyyət Sarayının foyesində nümayiş etdirilən sərgiyə baxmışlar. Sərgidə Samirə Əliyevanın və Ayşən Novruzovanın əl işləri nümayiş etdirilmişdir. Rəsm, toxuma və hörmə, bədii tikmə və s. növlərdə əl işləri tədbir iştirakçıları tərəfindən maraqla qarşılanmışdır.

Sonra dəyirmi masa ətrafında, çay süfrəsi arxasında davam etdirilən tədbirdə mədəniyyət evinin metodisti Ziyada Dadaşova, Ağsaqqallar Şurasının sədri Qəzənfər Nəcəfov, Şəhid Ailələlri və Qarabağ Müharibəsi Əlilləri Respublika Birliyi Siyəzən Rayon şöbəsinin sədri Hacı Əzizbala Əsədov, Veteranlar Şurasının sədri Qələmşah Babayev, Sosial müdafiə Fondu Siyəzən rayon şöbəsinin sədri Güllər Yunusova, Əlil Qadınlar Cəmiyyəti Siyəzən rayon şöbəsinin sədri Qərənfil Niftəliyeva, Əhalinin Sosial Müdafiəsi Mərkəzi rayon şöbəsinin işçisi Mətanət Sultanova və digərləri çıxış edərək dövlətimizin əlil vətəndaşlara göstərdiyi diqqət və qayğıdan, bu istiqamətdə rayonumuzda həyata keçirilən işlərdən danışdılar. Tədbirdə xüsusi vurğulandı ki, əlil vətəndaşlara diqqət və qayğı cəmiyyətimizin hər bir üzvünün borcudur.

**R. MURADOVA.**

## XİDMƏTİN SƏVİYYƏSİ ARTIR

Aramızda az-az adam tapılar ki, «Kapital» Bankın xidmətlərindən istifadə etməsin. İllər ötdükcə müştərilərə göstərilən xidmətlərin səviyyəsi də artmaqdadır.

Bunu rəhbərlik etdiyim «Kapital» Bankın Siyəzən rayon filialının timsalında aydın görürük. Bizə müraciət edən hər bir müştəriyə yüksək, günün tələbləri səviyyəsində xidmət göstərmək üçün hər cür şəraitimiz vardır.

Bir neçə faktı xüsusilə qeyd etməyi özümə borc bilirəm. Filialın əməkdaşları arasında möhkəm nizam-intizam yaradılmış, işə məsuliyyət hissi artırılmışdır. Quraşdırılmış video-kamera vasitəsilə rəhbərlik tərəfindən şöbələrin fəaliyyətinə ciddi nəzarət edilir, azacıq da olsun qanun pozuntusu müşahidə olunarsa yerindəcə müzakirə edilir, lazımi tədbirlər görülür.

Ölkə Prezidenti cənab İlham Əliyevin söylədiyi kimi, biz xalqın xidmətçisiyik. Bankın xidmətlərindən yararlanan hər bir müştəriyə tam şəffaflıq şəraitində, yüksək səviyyədə xidmət göstərmək gündəlik fəaliyyətimizin əsasını təşkil edir.

**Şirin NURİYEV,**
**«Kapital» Bankın Siyəzən filialının müdiri.**

## Dövlət rəmzlərinin təbliği

Rayon Gənclər və İdman idarəsi və Təhsil şöbəsinin birgə təşkilatçılığı ilə Gənclər Mərkəzində dövlət rəmzlərinin təbliği mövzusunda şəhər 2 saylı tam orta məktəbin şagird və müəllim kollektivinin iştirakı ilə tədbir keçirilmişdir.

Tədbirdə çıxış edən Gənclər və İdman idarəsinin rəis müavini Vüsal Alışov, təhsil şöbəsinin metodisti, tarix müəllimi Gündüz Səmədli, 2 saylı tam orta məktəbin Azərbaycan dili və ədəbiyyatı müəllimi Rübabə Hüseynova və Uşaq Birliyi rəhbəri Pərvanə Səfərova bildirmişlər ki, Azərbaycan Respublikasının dövlət rəmzləri Azərbaycan dövlətinin müstəqilliyini təcəssüm etdirir. Belə tədbirlərin həyavta keçirilməsi yeniyetmə və gənclərin vətənpərvərlik tərbiyəsini gücləndirir və onlarda tariximizə, milli atributlarımıza və milli dəyərlərimizə hörmət və ehtiramı artırır.

**Vüsal ALIŞOV,**
**Gənclər və İdman idarəsinin rəis müavini.**

## ANA ABİDƏMİZ OLAN «KİTABİ-DƏDƏ QORQUD» DASTANI

Ana abidəmiz olan «Kitabi-Dədə Qorqud» dastanı tariximiz, mədəniyyətimiz, ictimai fikrimiz, sözümüz və epos yaradıcılığımız haqqında zəngin bir xəzinədir. Əsrlərdir bu xəzinənin inciləri insanların ruhi aləmini bəzəyir.

Qeyd etməliyik ki, Prezident İlham Əliyev Azərbaycanın bütün mənəvi dəyərləri ilə yanaşı, «Kitabi-Dədə Qorqud» dastanının da təbliğinin, öyrənilməsinin, dünya mədəniyyəti xəzinəsinə daxil edilməsinin tərəfdarı və təşəbbüskarıdır.

Bildiyiniz kimi, Azərbaycan xalqının mədəni sərvətlər xəzinəsində müstəsna yer tutan və əsrlərdən bəri milli-mənəvi varlığın ayrılmaz tərkib hissəsinə çevrilən «Kitabi-Dədə Qorqud» abidəsinin alman şərqşünas alimi Fridrix fon Dits tərəfindən üzə çıxarılması, nəşr edilməsi və dünya elm aləminə tanıdılmasının 200 illiyi tamam olur.

Həmişə yaddaqalan gözəl ənənələri ilə seçilən Siyəzən şəhər C. Cabbarlı adına tam orta məktəbin akt zalı yenə bayramsayağı bəzədilmişdi. Məktəbimizin şagirdləri, müəllimləri, bir sözlə qorqudsevənlər buraya vətənpərvərlik, qəhrəmanlıq mövzusunda olan bu əsəri anmaq üçün gəlmişdilər.

Şagirdlərdən Aytac Əliyeva, Cahid Məmmədov, Hüseyn Məmmədov, Murad Əhmədov, Ülkər Məmmədova, Firəngiz Kərimova, Səma İlyasova, Günəş Cəfərova, Lalə Qasımova, Məhəmməd Səmədov, Şirməmməd Əhmədov, Fərahim Dadaşov, Xəyyam Muştafayevin dastandan bir neçə hissənin səhnələşdirilməsində az əmək sərf etmədikləri onların yaddaqalan, maraqlı ifalarından aydın hiss olunurdu.

Əlbəttə, vətənpərvərlik mövzusunda keçirilən belə tədbirlər şagirdlərin Vətənə, torpağa, anaya məhəbbət hissinin daha da möhkəmləndirilməsində, elinə, xalqına bağlanmasında mühüm rol oynayır. Odur ki, biz mütəmadi olaraq bu cür tədbirlərin hazırlanıb keçirilməsini fəaliyyətimizdə ön plana çəkirik.

**Sevinc ƏHMƏDOVA,**
**C. Cabbarlı adına 1 saylı tam orta məktəbin təşkilatçısı.**

## Qızıl medala layiq görülmüşdür

Türkiyənin İstanbul şəhərində 15-16 yaşlı yeniyetmələr arasında Sambo üzrə Avropa birinciliyi keçirilmişdir.

Yarışda rayon Sambo məktəbinin yetirməsi Qasımov Kamran 50 kq çəki dərəcəsində I yeri tutaraq qızıl medala layiq görülmüşdür.

Həmyerlimizi qazandığı uğura görə təbrik edir, ona qarşıdan gələn 2016-cı ildə yeni-yeni nailiyyətlərə imza atmağı arzulayırıq.

## III yeri tutmuşdur



Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə «İstedadların hazırlığı laboratoriyası» layihəsi çərçivəsində texniki fənlər üzrə III Respublika olimpiadasının final mərhələsinə yekun vurulmuşdur.

Olimpiadada Siyəzən rayonunu təmsil edən şəhər 6 saylı məktəb-liseyin şagirdi Baxşıyeva Nərgiz Tofiq qızı III yeri tutaraq «Park İnn» oteldə təşkil olunan mükafatlandırma mərasimində təşkilatçılar tərəfindən diplom, medal və qiymətli hədiyyələrlə təltif edilmişdir.

**Nadir Məmmədov,**
**Gənclər və İdman idarəsinin rəisi.**

## İTMİŞDİR

«Caspian Coast Winery and Vineyards» MMC-yə məxsus Seriya BÖM №844541 və Seriya BÖM №844543 nömrəli qaimə fakturaları itdiyi üçün etibarsız sayılır.

Zarat kənd tam orta məktəbinə məxsus «ETZ-80» traktorunun qeydiyyat şəhadətnaməsi (TH-01986) və qeydiyyat nişanı (53 AZT-094) itdiyi üçün etibarsız sayılır.

Mehdiyev Ramin Səfər oğluna məxsus ekskavator EO-2621-9a, Dövlət nömrə nişanı: Az-53 T-128 itdiyi üçün etibarsız sayılır.

## AZƏRBAYCAN SƏHİYYƏSİ

*Uğurları hər gün artan,*
*Ömürlərə ömür qatan,*
*Yardımından şəfa tapan,*
*Sağalan hər bir xəstənin,*
*Ürəyindən gələn səsi,*
*Azərbaycan səhiyyəsi!*

*Vardır gözəl həkimləri,*
*Xeyirlidir əməlləri,*
*Neçə xəstə ürəklərin,*
*Araşdırıb, tapıb dərdin,*
*Sağlamlığın himayəsi,*
*Azərbaycan səhiyyəsi!*

*Gün üzünə həsrət qalan,*
*Hər gün Allaha yalvaran,*
*Ümidlə işıq axtaran,*
*Neçə məzlum xəstələrin.*
*Açdıqca bağlı gözlərin,*
*Sevindirir hər bir kəsi,*
*Azərbaycan səhiyyəsi!*

***Firdovsi Ələmoğlu.***

## QIŞ MÖVSÜMÜNÜ VƏ YENİ İLİ YANĞINSIZ BAŞA VURAQ

Artıq havalar soyumağa başlamışdır. Bununla yanaşı, şəhər və rayon ərazisində yanğın təhlükəsi də artmışdır. Ona görə, yerli Dövlət Yanğın Nəzarəti Orqanı aşağıda göstərilən yanğına qarşı norma və qaydalara əməl etməyə çağırır:

-məktəblərdə, uşaq bağçalarında, klublarda, mədəniyyət evlərində, şəxsi və ictimai yaşayış evlərində və digər yerlərdə quraşdırılacaq yolkanı şənlik keçiriləcək mənzilin, otağın ortasında tərpənməyən möhkəm dayaq üzərində quraşdırmalı,

-yolkanın ətrafında sərbəst gəzmək və rəqs etmək məqsədilə bir metr enindən az olmayaraq dairəvi keçid saxlamalı,

-yolkaya tez alışan oyuncaq, şam və eləcə də digər təhlükəli bəzək işıqlandırıcı sistemin quraşdırılmasını qəti qadağan etməli,

yolkanı yalnız elektrik işığı ilə işıqlandırmalı və naqillər üzərində quraşdırılacaq elektrik lampaları 12 voltdan yuxarı olmamalıdır,

-yolkaya oddan qoruyucu məhlul hopdurulmuş pambıqla bəzədilməsinə icazə verilir,

-bütün giriş-çıxış yolları, keçidlər, koridorlar, pilləkənlər gediş-gəlişə uyğun olaraq açıq olmalıdır,

-yolka şənliyi keçiriləcək obyektlərdə yanğın təhlükəsizliyinə cavabdeh olan növbətçilər təyin edilməlidir,

-yeni il şənliyi keçiriləcək obyektlərdə ən azı iki ədəd təzə doldurulmuş odsöndürən balonlar, 200 litr su tutumu olan su ilə dolu boçka, iki ədəd vedrə və digər yanğınsöndürmə avadanlıqları ilə təmin edilməlidir,

Bütün bunlarla yanaşı, qış mövsümünün başlanması ilə əlaqədar ictimai, şəxsi yaşayış binalarının, müəssisə, təşkilat və digər ərazilərdə olan yanğın su hovuzlarının hər birini daima təmiz su ilə dolu saxlamaq tələb olunur,

Mövsümün başlanması ilə əlaqədar Şimal Regional Dövlət Yanğın Nəzarəti İdarəsi baş verə biləcək yanğınların qarşısının qabaqcadan alınması məqsədilə aşağıdakı təhlükəsizlik tədbirlərinin yerinə yetirilməsini Sizdən tələb edirik:

-mənzillərdə quraşdırılan təbii qaz sobası və qaz piltələrinin üzərində iki ədəd qoruyucu ventil (açar) quraşdırmalı,

-qaz sobalarını yandırmazdan əvvəl mütləq qaydada otaqların qapı və pəncərələrini açmalı və sonra qeyd olunan cihazları yandırmalı,

-evlərdə, idarə və müəssisələrdə quraşdırılan və quraşdırılacaq odun və qaz sobalarının tüstü borularının çardağa çıxışını qəti qadağan etməli,

-evdən gedərkən bütün növdə olan elektrik, qaz və digər yanğın törədə biləcək cihazların tam söndürülməsinə nail olmalı,

-sobaların ağ neftlə, benzinlə və digər tez alışa bilən mayelərlə yandırılmasını qəti qadağan etməli,

-sobaların yandırılmasını az yaşlı uşaqlara və onu yandırmağı nabələd olan şəxslərə etibar etməyin,

-bir neçə elektrik cihazlarını eyni vaxtda cərəyan xəttinə qoşmağı qəti qadağan etməli, bu vəziyyətdə elektrik naqillərində həddindən artıq yüklənmə yaranır ki, bu da yanğına şərait yaradır,

-sobanın və tüstü borularının yaxınlığında paltar qurutmaq, odun yığmaq və digər tez alışa bilən mayelərin saxlanmasına qəti yol verməyin,

Qış mövsümünə keçidlə əlaqədar Dövlət Yanğın Nəzarəti orqanının əməkdaşları yaşayış evlərinin yanğına qarşı vəziyyətinin yoxlanması işini davam etdirirlər. Odur ki, yoxlama aparan əməkdaşlara qarşı xoş münasibətdə olmağınızı və lazımii məsləhətlər almağınızı xahiş edirik.

Biz ümidvarıq ki, 2015-ci ili yanğınsız başa vuraq və 2016-cı ili xoş əhval-ruhiyyə ilə qarşılayaq.

Yanğın baş verdikdə 101-ə və ya 102-yə zəng etməyi unutmayın.

**Ramiz HƏSƏNOV,**
**Şimal Regional Dövlət Yanğın Nəzarəti İdarəsinin Dövlət Yanğın Nəzarəti şöbəsinin böyük inspektoru, daxili xidmət mayoru.**

Redaktor
İlyas İLYASOV

Təsisçilər:
Siyəzən Rayon İcra Hakimiyyəti başçısının aparatı və redaksiyanın jurnalist kollektivi

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydə alınmışdır
Qeydiyyat № 314
Redaksiyanın ünvanı: Siyəzən şəhəri, Şəhriyar küçəsi, 1a

Qəzet "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur

Sifariş 4157
Tiraj 500
"Kapitalbank"ın Siyəzən filialı
AZ 20 AİİB
33080019445500250155
kod 200554
VÖEN 7100046791
telefon: 304-04-83